CMYK



## BİZİM ŞÜAR:

## "NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyəz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə "yoldaş" Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |




## FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏDƏN 70 İL ÖTÜR

***İkinci Dünya müharibəsi bəşəriyyətin ən dəhşətli və faciəli illəri kimi yaddaşlarda qalıb. Bu müharibə istər əhatə dairəsinə və iştirakçı dövlətlərin sayına, istərsə də müharibənin aparılması metodlarına görə birincidən qat-qat ağır idi.***

***İtaliyada faşist və Almaniyada nasist diktaturaları nəinki bu ölkələrin özlərini, habelə bütün bəşəriyyəti təhlükə altına qoymuşdu. Qərb demokratiyasının, faşizmin və kommunizmin toqquşmasının labüd nəticəsi olaraq bu müharibəyə o vaxt SSRİ-nin tərkibində olan Azərbaycan SSR də qoşulmalı oldu.***

Həmin illər ərzində Azərbaycan xalqı ön cəbhədə qəhrəmanlıq nümunələri və cəsarət nümayiş etdirmiş, qələbənin qazanılmasına misilsiz töhfələr vermişdir. Müharibə dövründə 600 mindən çox azərbaycanlı oğlan və qız cəbhəyə yollanmış, 87 qırıcı təyyarə batalyonu və 1124 özünümüdafiə dəstələri təşkil olunmuşdur. Azərbaycanlılardan ibarət 416-cı, 271-ci, 77-ci, və 223-cü diviziyalar demək olar ki, müharibənin ən qızğın bölgələrində düşmənə qarşı vuruşublar. Göstərilən rəşadət və qəhrəmanlığın nəticəsi olaraq 130-a yaxın həmyerlimiz "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüş, 30 nəfər "Şərəf" ordeni, 170 min nəfər isə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişdir.

Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl şücaət və əzmkarlıq göstərib. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır.

Bir sözlə, İkinci Dünya müharibəsi Azərbaycan xalqının fədakar, qəhrəman, cəsarətli olmasını bir daha sübut etdi. Məhz ona görədir ki, 1994-cü ildən başlayaraq hər il 9 May-Qələbə günü ölkəmizdə təntənə ilə qeyd olunur, o illərin ağrı-acısı ilə yanaşı, xalqımızın qəhrəmanlığı da şərəflə yad edilir. Onların keçdiyi zəngin döyüş yolu bu gün də gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Bu gün respublikamızda veteranlarımıza dövlət tərəfindən yüksək qayğı göstərilir, çünki müharibə veteranlarına dövlət qayğısı sosial siyasətin əsas istiqamətlərindən biridir. Qələbə bayramı ərəfəsində dövlət başçısının Sərəncamı ilə müharibə iştirakçılarına, onların ailələrinə birdəfəlik maddi yardımın edilməsi də bu qayğının bariz nümunəsidir.

Faşizm üzərində qələbənin 70 illiyi münasibətilə biz də veteranlarımızı ürəkdən təbrik edirik.

**leytenant X.Tağıyeva**

## ERMƏNİLƏRİN MƏKRİNİ AÇAN ARXİV SƏNƏDLƏRİ

*Türkiyə ermənilərinin xəyanətinə dair sübutlar...*

***Türklərə qarşı düşmən mövqeyində olan tarixçilər həmişə bu ifadədən sui-istifadə edirlər. Guya deportasiya zamanında ermənilər "sadiq millət" olublar.***

***Ermənilərlə bağlı "sadiq millət" ifadəsini işlətmək ancaq bir məna verə bilər – onlara 1915-ci il hadisələri ilə bağlı öz məqsədlərinə çatmaqda yardım arzusu.***

Amma Osmanlı imperiyasının arxivləri diqqətlə öyrənilsə, hələ 1915-ci il hadisələrinə qədər ermənilərin müsəlmanlara qarşı əsl münasibətinə dair yüzlərlə sübut tapılar.

Məsələn, beş vilayətdə – Trabzon, Ərzincan, Van, Bitlis və Ərzurum vilayətlərində 1914-cü ildə əhalinin 3 milyon 300 min olması ilə bağlı Osmanlı dövrünə aid arxiv sənədi var. Çoxu fərarilərdən ibarət olan erməni quldur dəstələrinin hücumları nəticəsində adıçəkilən vilayətlərdə əhalinin sayı bir ilin içində 600 minə qədər azaldı.

Bu vilayətlərin müsəlman əhalisinin əksəriyyəti qətliama və işgəncələrə məruz qaldı, bir hissəsi isə daha sakit vilayətlərə qaçaraq xilas oldu.

Ermənilərin vəhşiliklərinə cavab olaraq türklər erməni əhalini tərk-silah etməyi qərara aldılar. Ermənilər isə iddia edir ki, "bu soyqırım törətməyə doğru birinci addım olub". Bu, bir daha onu göstərir ki, ermənilərin 1915-ci il hadisələri ilə bağlı iddiaları yalandan başqa bir şey deyil.

Bundan başqa, Osmanlı dövrünə aid arxivlərdə sənədlər var ki, erməni siyasi dairələrinin Eçmiədzindəki erməni katolikosu ilə yazışmalarını sübut edir. Katolikosun ABŞ prezidenti və Qafqazın general qubernatoru ilə sıx əlaqələri olub.

Hələ 1915-ci il hadisələrinə qədər Eçmiədzindəki erməni katolikosu Vorontsova teleqram ünvanlamışdı: "Vasitəçilərdən, İstanbul patriarxı və erməni milli assambleyasından aldığımız məlumatlara əsaslanaraq, sizdən İmperator Əlahəzrətlərinə onun təbəələrinin, habelə Türkiyə ermənilərinin sədaqət və simpatiyasını çatdırmağı rica edirik".

Katolikosun bu məktubu İstanbuldakı erməni siyasi dairələrinin xəyanəti faktını sübuta yetirir.

Amma Türkiyə ermənilərinin xəyanətinə dair sübutlar hələ bitmir.

Bir çox fakt var ki, ermənilərin özü də inkar etmir. Məsələn "Patriotism perverted" kitabının müəllifi K.S.Papazyan yazır: "Türkiyədə "Daşnak" partiyasının üzvləri loyal qalmaq vədlərini tutmadılar... Onların hərəkətlərinə Rusiya hökumətinin maraqları təsir etdi. Silahlı erməni könüllüləri, habelə fərarilər türklərə qarşı döyüşmək üçün Qafqaz cəbhəsinə getdilər".

Ermənilərin hər yolla dövləti içəridən dağıtmaq istəklərini sübut edən faktlar o qədərdir ki, bu qeydlər onların cüzi bir hissəsidir.

**Ermənistanı bu gün fəal şəkildə dəstəkləyən ölkələr də, ermənilərin dəyişkənliyi barədə düşünsə, yaxşı olar...**

metodiki vəsait

## SƏHRA ÇIXIŞININ TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ METODİKASI

*(əvvəli ötən sayımızda)*

**14.** Qumla dolu patron yeşiyi
**15.** Fışdırıq
**16.** Saniyəölçən
**17.** Gecə görmə cihazı
**18.** Kompas
**19.** Kurvimetr
**20.** Dağ (alpinist) kəndiri
**21.** Qaya qırmaqları.

**V. Döyüş maşınlarının idarə edilməsi üzrə:**

- Məşğələnin keçirilməsi planı
- Döyüş maşınlarının idarə edilməsi nəticələrinin cədvəli
- Normativlərin yerinə yetirilməsi üzrə nəticələrin cədvəli
- Texniki hazırlıq üzrə normativlər üçün texniki vərəqələr
- Ölçü lenti (metrə)
- Siqnal fənərləri
- Siqnal bayraqları
- Siqnal fişəngi (qırmızı)
- Maneələrin dəf edilməsi vərəqi
- Vəzifəli şəxslər üçün qol sarğıları
- Yığılan nömrə nişanları (gecə idarə etmək üçün)
- Dəmir xətkeş
- Rəngli qələm dəsti, flamasterlər, təbaşir, düymələr və qırmızı parça
- Döyüş maşınlarının idarə edilməsi üzrə dərs vəsaiti
- Normativlər toplusu.

**VI. Mühəndis hazırlığı üzrə:**

Kəşfiyyat vasitələri üzrə plakatlar, mina axtaran cihazlar (İMP, PR-507), normativlər toplusu, təlim üçün partlayıcı maddə və partlayış vasitələri, siqnal üçün bayraqlar, minaları qeyd etmək üçün bayraqlar, keçidləri qeyd etmək üçün birtərəfli işarələr, hərəkət marşrutunu qeyd etmək üçün göstərici, mina-partlayıcı sahələrin keçilməsinin sxemi, ağ-qara lent, mühəndis vasitələri üzrə plakatlar dəsti, piyada əleyhinə minaların (OZM-72, PMN-2, MON-5O, POMZ-2-M) təyinatı və quruluşu üzrə plakatlar, tank əleyhinə minaların (TM-62M, TM-57 və onların partladıcıları MVÇ-62, MVZ-62, MVZ-57, MVŞ) təyinatı və quruluşu üzrə plakatlar, kəşfiyyat komplekti KR-77 (əgər mövcuddursa).

**Planşetlər:**

- piyada əleyhinə minaların quraşdırılması və zərərsizləşdirilməsi;
- tank əleyhinə minaların quraşdırılması və zərərsizləşdirilməsi;
- sıra hesab üsulu ilə piyada və tank əleyhinə minaların quraşdırılması;
- mühəndis hazırlığı üzrə dərs vəsaiti.

**VII. KQSM üzrə:**

Əleyhqaz kəsiyinin maketi (əgər mövcuddursa), respirator, dərinin qoruyucu vasitəsi, fərdi kimya əleyhinə paket (İPP-8, 9, 10), atıcı silahın və geyim təchizatının deqozasiya edilməsi üçün komplekt (İDPS-69), kimyəvi hücum haqqında 40 mm xəbərdaredici reaktiv patronun maketi (əgər mövcuddursa), KQSM üzrə normativlərin yerinə yetirilməsi üçün təlim-məşq vərəqələri komplekti, siqnal fənərləri, xüsusi vasitələr, KQSM üzrə plakatlar (dəst), kimyəvi xətkeş dəsti, radiasiya və kimyəvi kəşfiyyat cihazları, kimya manqasının qutusu, ölçü lenti, İşarə bayraqları (dəst).

**VIII. Azərbaycan Respublikasının hərbi nizamnamələri üzrə:**

Əşya torbası, bölük (park, NBM) növbətçisinin təlimatlandırılması barədə lazımi sənədlər və əmlaklar:
- telefon aparatı;
- yanğınsöndürmə balonu;
- bölük və gün növbətçisi üçün təlimat (planşetdə);
- bölük növbətçisinin qol sarğısı;
- dolabça;
- növbətçinin qəbulu və təhvili, maşınların çıxması və qayıtması, silahların verilməsi, xəstələrin, buraxılanların qeydiyyat kitabları (təlim məqsədilə);
- məzuniyyət biletinin, ezamiyyət, göndəriş, buraxılış, icazə (daimi, müvəqqəti, birdəfəlik) eləcə də çaparların marşrut, avtomobillərin isə yol vərəqələrinin nümunələri.

**IX. Fiziki hazırlıq üzrə:**

Ölçü bağı (50 m), futbol və voleybol topları, qumbaraların atılması üçün məsafə göstəriciləri, "Start", "Finiş" yazıları olan dirəklər, siqnal bayraqları, qol sarğıları, sinə nömrələri, bayraqlar üçün dirəklər, hasarlamaq üçün lent (100 m), hasar lenti üçün dirəklər, rezin (təlim) tapança və bıçaq maketləri, əl qumbaraları (təlim), fiziki hazırlıq üzrə vəsaitlər, 10, 20, 30, 40, 50, 60, 70, 80, 90, 100, 150, 1000, 2500, 3000 m göstəriciləri, düzəlmə və ya sökülüb yığılan ştanqa, müxtəlif çəkili qantellər (dəst), dartmaq üçün kəndir, 16, 24 və 32 kq-lıq çəki daşları, saniyəölçən, fışdırıq, döngələrdə qaçış istiqamətini göstərən bayraqlar dəsti, bıçaqların və piyada belinin atılması üçün hədəf (hündürlüyü 180-200 sm, eni 80 sm qalınlığı 20 sm).

**Qeyd: Səhra çıxışında keçirilən məşğələlərin mövzularından asılı olaraq maddi-texniki tədris bazasının digər elementləri də götürülə bilər.**

**SƏHRA ÇIXIŞININ KEÇİRİLMƏSİ**

Səhra çıxışına rəhbərlik, nəzarət və praktiki köməklik göstərmək məqsədilə idarə qrupu yaradılır. Qrup döyüş hazırlığı şöbəsinin zabitləri, xidmət rəisləri və idarə heyətinin digər hərbi qulluqçularından təşkil olunur, qrupun rəhbəri isə hissə komandirinin müavinlərindən təyin olunur. Hər bir tədris sahəsinə bir zabit – məşğələ və lazımi sayda (1-2 nəfər) köməkçilər təyin olunur. Məşğələ rəhbərinin köməkçisi kimi bölmələrin zabit və çavuşları çıxış edə bilərlər. Təlim obyektlərində (yerlərdə) bölmə komandirlərinə və məşğələ rəhbərlərinə nəzarət etmək və onlara köməklik göstərmək məqsədilə idarə qrupu lazımi rabitə və hərəkət vasitələri ilə təmin olunur.

Səhra çıxışının təşkili və keçirilməsi 3 (üç) mərhələdən ibarətdir və bu mərhələlərin davametmə müddəti bölmələrin xidməti - döyüş təyinatından asılı olaraq müəyyən edilir.

**Birinci mərhələdə (birinci gün) məşq edilir:**

- bölmələrin təlim həyəcan siqnalı ilə qaldırılması, döyüş hazırlığı tədbirləri, marşın keçirilməsi üçün əmrin verilməsi, marş zamanı yolüstü taktiki məşqlərin keçirilməsi, taktiki, mühəndis hazırlığı, KQSM və digər təlim fənləri üzrə normativlərin yerinə yetirilməsi, toplanış rayonuna çıxış, bölmələrə taktiki şəraitin çatdırılması və təlim – döyüş tapşırıqlarının verilməsi;
- toplantı rayonuna (təlim mərkəzinə) yürüş, kəşfiyyat orqanlarında və yürüş mühafizəsində fəaliyyətlər, müxtəlif növ təbii və süni maneələrin (çəpərləmələrin) və zəhərlənmə zonalarının keçilməsi, hava hücumlarının dəf edilməsi, düşmənin təxribatçı- kəşfiyyat qrupları ilə mübarizə;
- təlim yerində yerləşmə, toplanma rayonunun mühəndis təminatı, mühafizənin təşkili, şəxsi heyətin istirahət yerlərinin təchizatı;
- səhra şəraitində müstəqil yeməyin hazırlanması;
- silah və texnikanın döyüş hazırlığına gətirilməsi;
- bölmələrdə xəbər vermə və rabitənin təşkili.

Göstərilən suallarının məşq etdirilməsi ilə bölmələrin toplanış rayonuna çıxmasına bir sutkadan çox olmayaraq vaxt sərf olunur.

**İkinci mərhələ (ikinci – dördüncü gün):**

- taktiki, atəş, mühəndis, kəşfiyyat, hərbi tibb hazırlıqları və digər təlim fənləri ilə birgə, kompleks şəkildə Daxili Qoşunların taktikası üzrə taktiki-sıra və taktiki məşğələlər (gündüz və gecə vaxtı) keçirilir;
- atıcılıq silahlarından və döyüş maşınlarından ştat mərmiləri yoxlama atışları, eləcə də bölmələrin tərkibində maşınların idarə olunması üzrə yoxlama məşqləri yerinə yetirilir;
- taqım tərkibində döyüş atışları keçirilir.

*(davamı gələn sayımızda)*

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti gizir Lyudmila Ulçixanovaya **nənəsinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 08 (450)
30 aprel
2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# "BAKI-2015" I AVROPA OYUNLARININ MƏŞƏLİ ALOVLANDIRILDI

*Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib*

Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş verdi. Bakıda birinci Avropa Oyunlarının məşəli alovlandırıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak ediblər.

Ölkəmizin müstəqillik tarixində ev sahibliyi edəcəyi mötəbər tədbir - birinci Avropa Oyunları beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzindədir.

Aprelin 26-sı isə ilk Avropa Oyunlarının həyəcanının başlanğıc günü kimi tarixə düşür. Olimpiya ənənəsinə uyğun olaraq, estafet qədim od məbədi olan Atəşgahdan başlayır. Birinci Avropa Oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq, Oyunların açılış mərasimində Bakı Olimpiya Stadionuna gətiriləcək.



**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV mərasimdə çıxış edərək dedi:**

Hörmətli Avropa Olimpiya Komitəsinin prezidenti cənab Patrik Hikki.

Hörmətli xanımlar və cənablar, əziz dostlar.

2012-ci ilin sonunda Avropa Olimpiya Komitəsi birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul etmişdir. Bu, tarixi bir qərar idi. Çünki başqa qitə oyunlarından fərqli olaraq, Avropada Oyunlar heç vaxt keçirilməmişdir. Bu, Azərbaycana Avropa Olimpiya ailəsi tərəfindən göstərilmiş böyük etimad idi. Bu qərara görə Avropa Olimpiya Komitəsinə və onun prezidenti cənab Patrik Hikkiyə Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm.

Bu qərar bizi çox sevindirdi, Azərbaycan xalqını sevindirdi. Bu, bizim üçün həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Vaxtımız məhdud idi. Ona görə biz dərhal işə başladıq, Təşkilat Komitəsi yaradıldı. Bu müddət ərzində Təşkilat Komitəsi çox fəal və böyük uğurla işlədi. Bu gün artıq Azərbaycan və Bakı şəhəri bu Oyunların keçirilməsi üçün tam hazırdır. Təşkilat Komitəsinə bu yüksək fəaliyyətə görə minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, beynəlxalq və yerli mütəxəssislərdən ibarət beynəlxalq Əməliyyat Komitəsinə də minnətdarlığımı bildirirəm. Onların da fəaliyyəti təqdirəlayiqdir. Əlbəttə, biz daim Avropa Olimpiya Komitəsinin dəstəyini hiss edirdik, bu gün də bunu hiss edirik. Beləliklə, Oyunların hazırlanması üçün bütün məsələlər öz həllini tapmışdır.

Şəxsən mən hesab edirəm ki, bu Oyunların Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərar bir neçə amillə bağlıdır. İlk növbədə, bunu idmançılarımızın uğurlu çıxışı mümkün etmişdir. Son Yay Olimpiya Oyunlarında Azərbaycan komandası 30-cu yerə layiq görülmüşdür. Avropa ölkələri arasında isə biz 15-ci yerə yüksəlmişik. Eyni zamanda, Azərbaycanda gözəl gənc nəsil yetişir. Gənc idmançılarımız da bizi sevindirir. Keçən il yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycan komandası 10-cu yerə yüksələ bilmişdir. Bu, tarixi nailiyyətdir.

Bununla bərabər, son illər ərzində Azərbaycanda müasir idman infrastrukturu yaradılmışdır. Azərbaycanın bölgələrində 40-dan çox Olimpiya İdman Mərkəzi yaradılmışdır. Bakı şəhərində yaradılan və əsaslı şəkildə təmir edilən bütün idman obyektlərimiz ən yüksək standartlara cavab verir. Şəxsən mən hesab edirəm ki, bundan yüksək standart mümkün deyil.

Nəqliyyat infrastrukturumuz yeniləşib, müasirləşib və bu gün bizim tələblərimizə tam cavab verir. Xidmət infrastrukturu yaradılır. Bakıda bütün aparıcı brend otellər fəaliyyət göstərir, öz fəaliyyətini genişləndirir.

Beynəlxalq yarışların keçirilməsi üçün bizim kifayət qədər geniş təcrübəmiz var. Son illər ərzində Azərbaycanda çoxsaylı dünya və Avropa çempionatları keçirilmişdir. Azərbaycanın sürətli iqtisadi inkişafı, əlbəttə ki, bu qərarın qəbulunda öz rolunu oynamışdır. Hesab edirəm, önəmli məsələ ondan ibarətdir ki, Azərbaycan əhalisi bu qərarı böyük sevinclə və qürur hissi ilə qarşılamışdır.

Beləliklə, bu gün biz tam məsuliyyətlə deyə bilərik ki, iki il yarım ərzində görülmüş işlər ən yüksək səviyyədədir. Əminəm ki, biz bu gözəl idman bayramını yüksək səviyyədə keçirəcəyik.

Onu da qeyd etməliyəm ki, iki ildən sonra Bakıda İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Yəni, bu idman bayramı davam edir. Bu, əslində Azərbaycanın dünyada oynadığı nadir rolu əyani şəkildə ifadə edir. 2015-ci ildə Avropa Oyunları, 2017-ci ildə isə İslam Həmrəylik Oyunları Bakıda keçiriləcəkdir.

Azərbaycan əsrlər boyu sivilizasiyalararası, millətlərarası, dinlərarası dialoqun aparılması üçün öz imkanlarını ortaya qoyub. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələrinin birgə yaşaması, bir ailə kimi yaşaması nadir təcrübədir. Beləliklə, Azərbaycan Avropa ilə Asiyanı, sivilizasiyaları birləşdirir, qarşılıqlı anlaşmanın bərqərar olması üçün səylərini göstərməkdədir.

Mən əminəm ki, bizim idman bayramlarımıza gələn xarici qonaqlar, idmançılar, məşqçilər Bakıdan öz vətənlərinə ən xoş təəssüratla qayıdacaqlar. Azərbaycan gənc müstəqil dövlətdir. Ancaq bizim çox böyük və zəngin tarixi və mədəni irsimiz var. Azərbaycanın zəngin tarixi, mədəniyyəti bizim qürur mənbəyimizdir. Azərbaycanda qədim tarixi memarlıq abidələri bizim qürur mənbəyimizdir.

Bu gün biz qədim Atəşgah məbədinin önündə toplaşmışıq. Bu gün birinci Avropa Oyunlarının məşəli Atəşgah məbədində alovlandırılacaqdır. Bu məşəl ölkəmizin bütün şəhərlərinə gətiriləcək, bütün ölkəmizi dolaşacaq ki, Azərbaycan xalqı bu gözəl idman və dostluq bayramını qeyd etsin.

Mən birinci Avropa Oyunlarında iştirak edəcək bütün idmançılara uğurlar arzulayıram.

Qoy, güclü qalib gəlsin! Yaşasın Azərbaycan!

**Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik HİKKİ çıxış edərək dedi:**

Zati-aliləri cənab Prezident.
Birinci xanım Mehriban Əliyeva.
Hörmətli qonaqlar.

Bu axşam Avropa idmanı qitəmizin idman potensialının reallaşması yolunda yekun mərhələyə daxil olacaq. İlk Avropa Oyunları artıq reallığa çevrilir.

İki ildən bir qədər çox əvvəl biz böyük məmnunluqla elan etdik ki, Avropa Oyunlarını qəbul edən ölkə Odlar Yurdu Azərbaycan olacaq. Ən cəlbedici elementlərdən biri - ölkənizin milli rəmzi olan alov, eyni zamanda, Olimpiya Hərəkatının gücünün və qüdrətinin əsas təcəssümüdür. Məşəlin alovlandırılmasının və estafetin müasir ənənəsinin əsasını qoymuş, qədim idman oyunlarını yaratmış yunan sivilizasiyası odu, alovu müqəddəs sayırdı.

Bu axşam biz nadir mərasimimizdə həmin Olimpiya irsinə sadiq qalaraq Atəşgah məbədində Avropa Oyunlarının məşəlini alovlandıraraq məşəli stadiona və "Bakı-2015" Oyunlarının açılış mərasiminə yola salırıq. Bu, Avropa idmanı üçün həlledici məqamdır. Həmkarlarım, eləcə də təmsil etdiyim Avropa Olimpiya Komitəsi Sizə göstərdiyiniz yardıma görə olduqca minnətdardır. Çünki biz planlarımızın birgə reallaşmasına doğru yekun addım atırıq. Kamillik, dostluq və hörmət kimi Olimpiya dəyərləri məşəl estafetində aydın şəkildə əks olunur. Məşəlçilər qardaşlıq ruhunda alovlanan məşəli bir-birinə ötürərək idman vasitəsilə sülh, dostluq və təntənə mesajını hər yerə yayırlar.

"Bakı-2015" bütün ölkənizin əməyi və səyləri sayəsində baş tutacaq. Azərbaycan rəhbərliyi ilə işləmək olduqca məmnunluq doğurdu. Sizin peşəkarlığınız və diqqətiniz bizi hər zaman təsirləndirdi. "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyeva Oyunlara hazırlıq işlərində şəxsən iştirak edərək dəyərli göstəriş və tövsiyələrini vermiş, işə tam sadiqliyini nümayiş etdirmişdir.

Mən Avropa Olimpiya Komitəsinin səmimi minnətdarlığını Prezident İlham Əliyevə və birinci xanıma çatdırmaq istərdim. Təşkilat Komitəsi və "Bakı-2015" ilk Avropa Oyunları Əməliyyat Komitəsinin peşəkar heyəti planlarımızı reallığa çevirmək üçün 27 ay ərzində yorulmadan çalışıblar. Belə qısa müddət ərzində görülmüş bu qədər işləri hətta ən çılğın arzularımızda təsəvvür edə bilməzdik. Əslində bütün Bakı heyəti hətta Oyunlar başlamazdan öncə dünya rekorduna imza atdı.

Mən gözəl ölkənizi gəzib dolaşan "Bakı-2015" məşəlinin estafetini izləməyi səmimiyyətlə arzulayıram. Çünki bu məşəl çox mühüm ilk Avropa Oyunlarının açılış mərasiminə aparan yolu işıqlandıracaq. Sağ olun.

**Daha sonra Prezident İlham Əliyev ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin müşayiəti ilə Oyunların məşəlini alovlandırdı.**

Dövlətimizin başçısı məşəli "Bakı-2015" Avropa Oyunlarının ilk məşəlçisi, Olimpiya çempionu Rəfiqə Şabanovaya verdi.

Beləliklə də, Birinci Avropa Oyunlarının məşəlinin səyahəti başladı. Estafetə 1000 nəfərdən çox məşəlçi cəlb olunub və hər regionda "Alov festivalı"nın keçirilməsi nəzərdə tutulub. Məşəl yer üstündə avtobus, funikulyor, velosiped, yer altında Bakı metrosu, suda qayıq, havada isə təyyarə ilə daşınacaq. Məşəl iyunun 8-də paytaxtdakı idman arenalarında, 9-da isə İçərişəhərdə gəzdiriləcək. İyunun 10-u məşəl proqramının son günü olacaq və Bakıya gətirilənədək təxminən 5500 kilometr məsafə qət edəcək. 660 millimetr hündürlüyü olan məşəlin gövdəsi "Bakı-2015" brendində yer alan nar ağacını xatırladır. Alovu qoruyan mis başlıq da nar formasındadır. Onun 50 çəyirdəyi Oyunlarda iştirak edən ölkələrin sayını təmsil edir.

Sonra birinci Avropa Oyunlarının məşəlinin alovlandırılması münasibətilə ziyafət təşkil olundu.

Daha sonra birinci Avropa Oyunlarının məşəli ilə xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Aprelin 28-də daxili işlər naziri, general-polkovnik Ramil Usubov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Jandarm Qüvvələrinin Qərargah rəisi, general-polkovnik İbrahim Yaşarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Qonaqları səmimiyyətlə salamlayan nazir Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" adlandırdığı Azərbaycanla Türkiyə arasında əlaqələrin genişləndiyini, dövlət başçılarımızın əməkdaşlığın bütün sahələrdə ən yüksək səviyyədə inkişafına böyük önəm verdiklərini diqqətə çatdırıb. Eyni zamanda, son illər hər iki ölkənin daxili işlər nazirliklərinin cinayətkarlıqla mübarizə, peşə hazırlığı, informasiya və təcrübə mübadiləsi sahələrində əldə etdikləri diqqətəlayiq nəticələr, kriminogen durum barədə qısa məlumat verib.

Nazir ordu quruculuğunda, o cümlədən Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən silahlı birləşməyə çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Komandanlığının böyük zəhməti olduğunu xüsusi vurğulayıb, bunun əyani təzahürü kimi qardaş ölkənin hərbi tədris müəssisələrinə yüzlərlə hərbi qulluqçunun təhsil aldığını xüsusi qeyd edib və bu səfərin də birgə əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib.



Problemlərə toxunan cənab Ramil Usubov transmilli mütəşəkkil cinayətkarlığın beynəlxalq terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qeyri-qanuni miqrasiya kimi ağır növləri ilə mübarizənin ölkəmizdə də diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Səmimi qəbula, xoş sözlərə və ətraflı məlumata görə təşəkkür edən general-polkovnik İbrahim Yaşar Türkiyə Jandarm Qüvvələrinin Baş Komandanı, ordu generalı Abdulla Atayın salamlarını daxili işlər nazirinə çatdırıb, 17 il öncə - Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dönəmində ölkəmizdə Daxil Qoşunlar komandanının müşaviri vəzifəsində çalışmasından qürur duyduğunu, ötən dövrdə paytaxtın simasının inanılmaz dərəcədə dəyişilməsindən və gözəlləşməsindən, respublikamızın sürətli inkişafından məmnunluğunu ifadə edib.

Qonaq Azərbaycan ordusunun, Daxili Qoşunların inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və dövlətlərimizin mənafelərinə xidmət edəcəyini vurğulayıb.

Qeyd edək ki, həmin gün Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı, general-leytenant Şahin Məmmədov Türkiyə Respublikası Jandarm Qüvvələrinin Qərargah rəisi, general-polkovnik İbrahim Yaşarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyəti səfər çərçivəsində Daxili Qoşunların "N" saylı hərbi hissəsində taktiki-təlimi izləmiş və Ali Hərbi Məktəbdə təlim-tədris prosesi ilə maraqlanmışlar.

# HƏRBİ ŞURANIN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov I Avropa Oyunları zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi istiqamətində qarşıda duran vəzifələrin yüksək səviyyədə yerinə yetiriləcəyini bildirib***

*Aprelin 24-də Daxili Qoşunların Baş İdarəsində I Avropa Oyunları ilə əlaqədar Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş tapşırıqların icrası ilə bağlı görülən işlərin vəziyyətinə həsr olunmuş Hərbi Şuranın iclası keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Tapdıqov, Daxili Qoşunların hərbi hissələrinin komandirləri və onların müavinləri iştirak ediblər.*

İclasın gündəliyində duran məsələləri elan edən Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, bu gün əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikası Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində dünyada böyük nüfuza və söz sahibinə çevrilib. Elə bunun nəticəsidir ki, müxtəlif sahələri əks etdirən mötəbər beynəlxalq tədbirlərin məhz Azərbaycanda keçirilməsi yekdilliklə inkişaf etmiş dövlətlər tərəfindən dəstəklənir. General-leytenant Ş.Məmmədov iyunun 12-dən 28-dək ölkəmizdə keçiriləcək I Avropa Oyunlarının da məhz bu qəbildən olduğunu deyərək, sözügedən tədbirlər zamanı Daxili Qoşunların şəxsi heyətinin digər aidiyyəti qurumlarla bərabər ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyini bildirib.

Sonra Daxili Qoşunların məsul vəzifəli şəxslərinin I Avropa Oyunları ilə əlaqədar xidmətə cəlb edilən hərbi qulluqçuların hazırlığı, mənəvi-psixoloji durumu və maddi vəsaitlərlə təminatı sahəsində görülən işlər barədə məruzələri dinlənilib.

Qeyd edilib ki, I Avropa Oyunları zamanı xidmətin təşkili ilə bağlı Daxili İşlər Naziri və Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanı tərəfindən verilmiş əmrlərin tələblərinə əsasən, ötən ilin dekabr ayının 5-dən etibarən "Atletlər" və "Media" kəndlərində, eləcə də "Şəfa" stadionunda obyektlərin perimetr boyu mühafizəsi, nəzarət-buraxılış məntəqələrinin fəaliyyəti üzrə xidmət təşkil olunub. Bununla bağlı, Daxili Qoşunların Baş İdarəsində Baş İdarəetmə Mərkəzinin, aidiyyəti hərbi hissələrdə isə idarəetmə məntəqələrinin işi təşkil olunub, xidmətin aparılması zamanı daxil olan əməliyyat məlumatları təhlil edilərək, müvafiq vəzifəli şəxslərə vaxtında çatdırılıb.

Bundan başqa, yarışların keçiriləcəyi ərazilərdə, yarış və qeyri-yarış obyektlərində ərazinin mühafizəsi və nəzarət-buraxılış tədbirlərinin təşkili məqsədilə plan-hesab hazırlanaraq, xidmətə cəlb olunan hərbi hissələrə göndərilib və icrası nəzarətə götürülüb.

Eyni zamanda, xidmətə cəlb olunacaq şəxsi heyətə vəzifə və funksiyaları, vətəndaşlarla ünsiyyətdə etik davranış qaydaları izah edilmiş, baş verə biləcək yanğın, terror və digər hadisələrə çevik reaksiya verilməsi üçün təlimatlar və bilavasitə xidmətaparma yerlərində praktiki məşqlər keçirilib.

I Avropa Oyunları zamanı ölkəmizə çoxsaylı xarici vətəndaşların, turistlərin gələcəyini nəzərə alaraq, nəzarət-buraxılış məntəqələrində xidmət aparan şəxsi heyətin vətəndaşlarla ünsiyyətdə dil problemlərinin minimuma endirilməsi məqsədilə cari ilin yanvar-fevral aylarında Baş İdarədə ingilis dili kursları təşkil edilib, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların kurslarda iştirakı təmin olunub.





Məruzələr zamanı o da vurğulanıb ki, xidmətə cəlb olunacaq şəxsi heyətin döyüş təlimi, maddi-texniki təminatı ilə yanaşı, mənəvi-psixoloji cəhətdən hazırlığı da diqqət mərkəzində olub. Yarış və qeyri-yarış obyektlərində xidmət aparan şəxsi heyətlə mütəmadi olaraq mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə müxtəlif mövzularda söhbətlər aparılıb, postlarda olarkən ayıq-sayıq xidmətin vacibliyi vurğulanıb, eyni zamanda, vətəndaşlarla etik davranış qaydaları diqqətə çatdırılıb. Məhz xidmətə məsuliyyətli münasibətin nəticəsidir ki, mühafizə olunan ərazilərə qeyri-qanuni daxil olmağa cəhd edən vətəndaşlar saxlanılıb və aidiyyəti üzrə hüquq-mühafizə orqanlarına təhvil verilib.

Məruzələr zamanı xidmətə cəlb edilən şəxsi heyətin maddi-texniki təminatı ilə bağlı məsələlərə də toxunulub. Bildirilib ki, şəxsi heyətin maddi-texniki təminatının təşkili məqsədilə xidmətaparma yerlərinə baxış keçirilib, xidmət aparacaq şəxsi heyətin xarici görünüşü yoxlanılıb, maddi-texniki vəsaitlərə olan tələbat hesablanıb və müvafiq tədbirlər görülüb. Həmçinin xidmətaparma yerlərində şəxsi heyətin yerləşmə şəraiti öyrənilib, qidalanmanın və istirahətin təşkili, texnikaların saxlanılması üçün yerlər və s. müəyyən edilib, şəxsi heyət tibbi müayinədən keçirilib. Xidmət zamanı hərbi qulluqçuların sağlamlığının qorunması istiqamətində profilaktik tədbirlərin aparılması, eləcə də yarana biləcək hər hansı gözlənilməz hallarda müvafiq tibbi xidmətin göstərilməsinin təmin edilməsi üçün hər bir obyektdə bölmələr tərkibində tibb personalının fəaliyyət göstərməsi planlaşdırılıb.

Müşavirədə daha sonra xidmətə cəlb edilən hərbi hissələrin komandirləri çıxış edərək mövcud vəziyyət barədə məlumat veriblər. Qeyd edilib ki, şəxsi heyət verilən vəzifələrin məsuliyyətini dərindən dərk edərək, böyük ruh yüksəkliyi ilə bütün tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirməyə hazırdır.

Məruzə və çıxışlardan sonra I Avropa Oyunları ilə əlaqədar Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş tapşırıqların icrası ilə bağlı görülən işləri qənaətbəxş hesab edən Daxili Qoşunların Komandanı bu istiqamətdə arxayınlaşmamağın, tədbirlərin icrasının davamlı olaraq yüksək səviyyədə həyata keçirilməsinin vacibliyini bildirib.

Cənab Komandan çıxışının sonunda oyunlar keçirilən zaman ictimai asayişin mühafizəsinin və ictimai təhlükəsizliyin yüksək səviyyədə təmin olunması məqsədilə bir sıra tələb və tapşırıqları diqqətə çatdırıb.

Müşavirəyə yekun vuran general-leytenant Ş.Məmmədov xüsusi olaraq vurğulayıb ki, Daxili Qoşunların şəxsi heyəti Azərbaycan Respublikasının Qanunlarından, ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fərman və sərəncamlarından, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, I Avropa Oyunları keçirilən zaman ölkədə sabitliyin keşiyində mətinliklə dayanacaqdır.

**Mətbuat xidməti**

# BAŞ İDARƏDƏ QƏBUL



Aprelin 24-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Pakistan İslam Respublikasının Qlobal Sənaye və Müdafiə Həlli Təşkilatının (GİDS) Baş Direktoru istefada olan Aviasiya Vitse Marşalı Zübair İqbal Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin tərkibində Pakistan İslam Respublikasının Birgə Qərargahının təmsilçisi ehtiyatda olan polkovnik Xalil Ahmad və GİDS-in Mərkəzi Asiya regionu üzrə layihələr departamentinin direktoru Mehtab Nazir Ahmad da təmsil olunurdu. Səmimi ortamda baş tutan görüşdə nümayəndə heyətini Pakistan İslam Respublikasının ölkəmizdəki Hərbi Attaşesi polkovnik Səid İmran Əli və tərcüməçi qismində Namiq Əliyev müşayiət edirdi.

Hörmətli qonaqları salamlayan general-leytenant Ş.Məmmədov Pakistan İslam Respublikasının Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu diqqətə çatdıraraq hər iki ölkə arasında qarşılıqlı dostluq münasibətlərindən söz açıb. Ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın mövcudluğunu müsbət hal kimi qiymətləndirən cənab Komandan bu istiqamətdə irəliləyiş və perspektivlərin olacağına ümid etdiyini bildirib.

GİDS-in Baş Direktoru Zübair İqbal Malik qonaqpərvər qəbul üçün öz təşəkkürünü bildirərək, Azərbaycan Respublikasına etdiyi səfərdən məmnun qaldığını deyib. O, rəhbərlik etdiyi Qlobal Sənaye və Müdafiə Həlli Təşkilatının fəaliyyətindən, eyni zamanda, xarici ölkələrlə əməkdaşlıqdan söhbət açıb. İkitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük töhfə verəcəyini vurğulayan cənab Zübair İqbal Malik səmimi qəbula görə general-leytenant Ş.Məmmədova təşəkkürünü ifadə edərək bundan sonra da qarşılıqlı əlaqələrin davam etdirilməsinə ümid etdiyini bildirib.

Görüşün sonunda Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov qonağa qiymətli hədiyyə təqdim edərək onunla xatirə şəkli çəkdirib.

* * * * *

Aprelin 22-də Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələrinin Briqada generalı Manoçehr Azad Kayaninin rəhbərliyi ilə Milli Müdafiə Universitetinin və "Milli Təhlükəsizlik və Müharibə kursu"nun nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində olub.



Qonaqları səmimi salamlayan Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov son illərdə Daxili Qoşunların qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirməyə qadir bir qüvvəyə çevrildiyini bildirərək, qoşunların beynəlxalq əlaqələrinin günü-gündən inkişaf etdiyini diqqətə çatdırıb. O, qonaqlara Ali Hərbi Məktəbdə təlim-tədrisin keyfiyyəti, dərslərin keçirilmə qaydaları, kursantlar üçün yaradılmış hərtərəfli şərait barədə ətraflı məlumat verib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə iki qurum arasında hərbi-texniki əməkdaşlıq münasibətlərinin bu gün uğurla davam etdirildiyi vurğulanıb.

Pakistan nümayəndə heyətinin rəhbəri briqada generalı M.Kayani səmimi qəbula görə dərin minnətdarlığını bildirərək, ölkəmizə rəsmi səfərin məqsədinin iki ölkənin müvafiq hərbi təhsil mərkəzləri arasında qarşılıqlı əlaqələrin dərinləşdirilməsindən ibarət olduğunu deyib.

Sonra Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, təlim-tədrisin, təchizatın vəziyyəti və beynəlxalq əlaqələri barədə brifinq verilib.

Görüşün sonunda qonaqlara hədiyyələr təqdim olunub və xatirə şəkli çəkilib.

# OMBUDSMAN APARATININ ƏMƏKDAŞLARI HƏRBİ HİSSƏLƏRİMİZƏ BAXIŞ KEÇİRİBLƏR

Azərbaycanın insan hüquqları üzrə müvəkkilinin (ombudsman) DİN-in Daxili Qoşunlarının rəhbərliyi ilə razılaşdırılmış birgə tədbirlər planına müvafiq olaraq, Aparatın əməkdaşlarının Daxili Qoşunların məsul şəxsləri ilə birgə hərbi hissələrə başçəkmələri müntəzəm davam etdirilir. Məqsəd hərbi qulluqçuların məişət şəraiti ilə tanışlıq və həmin hərbi obyektlərdə insan hüquqlarının təmin olunmasının vəziyyətini öyrənməkdir.

Ombudsman Aparatının əməkdaşları plan üzrə növbəti dəfə aprelin 15-də Daxili Qoşunların 16077 saylı hərbi hissəsinə baxış keçiriblər. Hərbi hissələrdə şəxsi heyətlə mövcud hərbi qanunvericilik, hərbi nizamnamələr və insan hüquqları mövzusunda söhbətlər aparılıb, bu cür tədbirlərin əhəmiyyəti vurğulanıb və insan hüquqları ilə bağlı çoxsaylı suallar cavablandırılıb. Eyni zamanda, hərbi qulluqçular insan hüquq və azadlıqlarının müdafiəsinin vəziyyəti, hüquqi maarifləndirmə, ideoloji və təlim-tərbiyə işlərinin, şəxsi heyətin yüksək döyüş ruhunun və psixoloji durumunun, həmçinin Vətənə sədaqət və vətənpərvərlik hissinin gücləndirilməsi istiqamətində aparılan işlərlə tanış olunublar.

Hərbi hissədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, hərbi texnikaya yiyələnmək bacarığının, yaşayış şəraitinin, qidalanma və sağlamlığının qorunmasının normal səviyyədə təşkili müşahidə edilib.

# HƏRBİ QULLUQÇULARIN MƏNƏVİ-PSİXOLOJİ DURUMU VƏ DÖYÜŞ HAZIRLIĞI YÜKSƏK SƏVİYYƏDƏDİR

***Bu gün DİN-in Daxili Qoşunların paytaxt Bakı ilə yanaşı, regionlarda yerləşən hərbi hissələri üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Hərbi hissələrdə xidmət müvafiq nizamnamələrin tələblərinə uyğun aparılır. ŞHÜİ-nin məqsədli qrupunun tərkibində 12318 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən bir daha bunun şahidi oldum.***

Ötən ilin sonlarında istismara verilən yeni hərbi şəhərcikdə səliqə-sahmanın qorunub saxlanılması təbii ki, burada hökm sürən ciddi nizam-intizamdan xəbər verir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Mübariz Hüseynov şəxsi heyətin təlim-tərbiyəsindən danışarkən bildirdi ki, bütün kateqoriyalı hərbi qulluqçuların nizam-intizamı daima nəzarətdə saxlanılır. Şəxsi heyətlə tərbiyəvi mövzularda həm kollektiv, həm də fərdi qaydada söhbətlər aparılır, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının 2 saylı direktivinin tələbləri çatdırılır. Komandir müavini görülən işlərdə hərbi hissənin Tərbiyə bölməsinin rəisi-baş təlimatçı kapitan Bilal Hacıyevin əməyini xüsusi vurğulayaraq qeyd etdi ki, o, tərbiyə işinin təşkilində əlindən gələni əsirgəmir.

Hərbi hissənin yüksək döyüş hazırlığına malik olması burada hökm sürən nizam-intizamın göstəricisidir. Çünki yalnız nizami ordularda döyüş qabiliyyəti yüksək olur.

Hərbi hissənin mühafizəsini təşkil edən komendant bölüyünün xidməti-döyüş fəaliyyətindən bəhs etmək istərdim.

Qarovul məntəqəsində yoxlama müddətində qarovul rəisi leytenant Mahir Babayevlə xidmətin təşkili barədə bir qədər söhbət etdik. O, mühafizənin etibarlı şəkildə təşkili üçün üzərlərinə düşən məsuliyyətdən danışdı. Qeyd etdi ki, burada xidmət aparan hər bir hərbi qulluqçu mənəvi-psixoloji baxımdan yüksək, fiziki baxımdan dözümlü, atıcılıq qabiliyyəti sərrast olmalıdır - bu üç amil qarovul xidmətinin təşkilində mühüm rol oynayır. Leytenant M.Babayev xidmətin təşkilində ona yaxından köməklik göstərən qarovul rəisinin köməkçisi çavuş Dəyanət Əlizadənin əməyini yüksək qiymətləndirdi.

Çavuş D.Əlizadə qarovul rəisi istirahətdə olduğu zaman döyüş hesabatının çatdırılmasına, postların vaxtlı-vaxtında dəyişilməsinə, silahların doldurulub-boşaldılmasına, təhlükəsizlik qaydalarına ciddi riayət olunmasına, o cümlədən əsgərlərin qidalanmasına, asudə vaxtlarının səmərəli keçirilməsinə ciddi nəzarət edir. O, həmçinin, məntəqədə təmizlik işlərinin görülməsini və səliqə-sahmanın qorunub saxlanılmasını da diqqət mərkəzində saxlayır. Çavuş D.Əlizadə qarovulun fəalları kimi əsgərlər Orxan İsgəndərlinin, Kamran Başirovun, Allahverən Heydərlinin, Cəlal Bəndərzadənin və Pərviz İbrahimovun adlarını qeyd etdi.





Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstənin qarşısında duran əsas tapşırıq regionda baş verə biləcək hər hansı bir ictimai qayda pozuntusunun qarşısını almaqdır. Bölmə komandiri baş leytenant Davud İsmayılov birdirdi ki, həvalə olunmuş tapşırıqların icrası zamanı daimi yüksək döyüş hazırlığının olması başlıca şərtdir. O, bu baxımdan keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Baş leytenant D.İsmayılov bildirdi ki, təlimlərdə şəxsi heyətə təhkim olunmuş xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri, istifadəsi, habelə təhlükəsizlik qaydaları öyrədilir. Bu, hərbi qulluqçularda peşə vərdişlərinin artırılmasına böyük təkan verir. Bundan əlavə, hərbi qulluqçuların fiziki göstəricilərinin vacibliyindən danışan bölmə komandiri həftədə altı saat idman tədbirlərinin keçirildiyini də bildirdi.

Hərbi qulluqçuların döyüş hazırlığını qənaətbəxş hesab edən komandir məşğələlərdə şəxsi heyətin fəallığını onların mənəvi-psixoloji keyfiyyətlərinin yüksək olması ilə əlaqələndirdi. O, bu istiqamətdə görülən işlərdə bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Mahir Hacıyevin əməyini xüsusi olaraq vurğuladı. Leytenant M.Hacıyev mehriban kollektivin formalaşması, döyüş ruhunun daima artırılması istiqamətində lazımi tədbirlərin həyata keçirildiyini dedi. O, məşğələlərin təşkili və keçirilməsində fəallıqları ilə seçilən baş əsgər Vüsal Yarıyevin, əsgərlər Ceyhun Abduləzimovun, Turan Musayevin, Eşqin Abbasovun, Vüsal Eyniyevin adlarını çəkdi.

Keçirilən nəzəri və praktiki məşğələlər zamanı şəxsi heyətin vəzifə borclarına ciddi yanaşması, verilən tapşırıqları vicdanla, yüksək dəqiqliklə yerinə yetirməsi deməyə əsas verir ki, hərbi qulluqçuların mənəvi-psixoloji durumu və döyüş hazırlığı yüksək səviyyədədir.

**baş leytenant T.Əlizadə**



# DAXİLİ QOŞUNLARDA ARXİV İŞİNİN TƏŞKİLİ TƏQDİRƏLAYİQDİR

**"Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".**

***Heydər Əliyev, Ümummilli Lider***

***Bu gün respublikada mövcud olan hər bir idarə, təşkilat və müəssisənin yarandığı tarixi, keçdiyi inkişaf yolunu və fəaliyyətini əks etdirən mühüm əhəmiyyətli sənədlər var. Bu sənədlər Azərbaycan Respublikası Milli Arxiv İdarəsində saxlanılır.***

***Hələ 1920-ci ildə Azərbaycanda "Vahid dövlət arxiv fondunun yaradılması və Xalq Maarif Komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında" dekret imzalanmışdır. 1921-ci ildə Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi Qafqazda ilk dövlət arxivi kimi fəaliyyətə başlamışdır.***

Müstəqillik dövründə isə Arxiv İdarəsi fəaliyyətində yeni bir mərhələyə qədəm qoydu. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bütün sahələrə olduğu kimi, arxiv işinin təşkilinə də xüsusi önəm verirdi. Dahi Öndərin arxiv işinin təşkili barədə söylədikləri bunu bir daha təsdiq edir: "Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir".

1999-cu ildə "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də məhz Ulu Öndərin bu sahəyə göstərdiyi diqqətin nəticəsi idi.

2002-ci ildə isə ölkə prezidentinin "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin bazasında Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradıldı.

Bu gün Azərbaycan Respublikasının arxiv sisteminə bilavasitə Milli Arxiv İdarəsinə tabe olan respublika əhəmiyyətli 6 dövlət arxivi, Dövlət arxivinin 15 filialı, Naxçıvan Muxtar Respublikasının dövlət arxivi, habelə 55 rayon və şəhər dövlət arxivləri daxildir.



Daxili İşlər Nazirliyinin mühüm struktur hissəsi olan Daxili Qoşunların da Arxiv fondu mövcuddur. Daxili Qoşunların Arxivi 2006-cı il yanvar ayının 2-də Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən yaradılıb.

Arxiv işinin təşkili, eləcə də fondun fəaliyyəti barədə Daxili Qoşunlarda Arxiv rəisi polkovnik-leytenant Rəhman Kərimov ətraflı məlumat verdi. Polkovnik-leytenant R.Kərimov bildirdi ki, arxiv işinin təşkili Daxili İşlər Nazirinin və Daxili Qoşunların Komandanının təsdiq etdiyi təlimat və rəhbər sənədlər əsasında qurulur. O, arxivin Daxili Qoşunların Baş İdarəsinin, hərbi hissələrin, tədris müəssisələrinin fəaliyyəti prosesində yaranmış sənədlərin, tamamlanmış kargüzarlıq işlərinin saxlanması, istifadəsi, məhv edilməsi, müvafiq sorğulara əsasən göndərilməsi və s. məsələləri tənzimlədiyini söylədi.



Əlavə etdi ki, qoşunların arxiv işinin təşkili və aparılması arxiv sənədlərinin qəbulunu, uçotunu, sistemləşdirilməsini, saxlanmasını və istifadəsini, eləcə də qoşunların fəaliyyəti zamanı yaranan sənədlərin saxlanması üçün seçilməsini, tarixi praktiki əhəmiyyətinin müəyyən edilməsi məqsədilə ekspert komissiyasına təqdim edilməsi işlərini həyata keçirir. Sənədlərin mühafizəxana otaqlarında xüsusi dəmir dolablarda saxlandığını deyən arxiv rəisi hər hərbi hissənin ayrı-ayrılıqda bir fond təşkil etdiyini və sənədlərin bu fondlar üzrə yerləşdiyini də vurğuladı.

Qoşunlarda arxiv işinin təşkilindən danışarkən bir məqama da toxunmaq istərdim. Burada ehtiyatda olan və hazırda xidmətini davam etdirən hərbi qulluqçular tərəfindən göndərilən ərizələrin, müraciətlərin cavablandırılması operativ şəkildə həyata keçirilməkdədir.

Polkovnik-leytenant R.Kərimov qeyd etdi ki, çox sayda ərizə və müraciətlər daxil olmaqdadır: "Çalışırıq ki, onlar vaxtlı-vaxtında cavablandırılıb aidiyyəti üzrə göndərilsin. Məsələn, "Təqvim ilində, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illərində növbəti məzuniyyətdən istənilən səbəbdən istifadə etməyən hərbi qulluqçuya (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin təqvim ili, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illəri üçün istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 28 senyabr 2012-ci il tarixli 217 nömrəli Qərarına əsasən, hərbi qulluqçulardan xeyli sayda ərizə daxil olmuşdur. Bununla əlaqədar olaraq, həmin qərarın icrası ilə bağlı Daxili Qoşunların Arxivi tərəfindən 3000-dən artıq arayış hazırlanmış və hərbi qulluqçulara müvafiq qaydada pul kompensasiyasının ödənilməsi təmin edilmişdir. Hazırda da bu proses davam etdirilir. Belə ki, ehtiyatda olan hərbi qulluqçuların müraciətləri əsasında arxiv arayışları hazırlanır və aidiyyəti üzrə çatdırılması təmin olunur".

Polkovnik-leytenant R.Kərimov arxiv işinin təşkilində mayor Kamran Məmmədovun, gizir Farid Məmmədovun, gizir Samir Əhmədovun, gizir Lalə Mustafayevanın və kiçik çavuş İlhamə Rzayevanın adlarını vurğulayaraq onların əməyini yüksək qiymətləndirdi.

**baş leytenant T.Əlizadə**

***II Dünya Müharibəsində faşizm üzərində qələbənin 70-ci ildönümü ərəfəsində DİN Veteranlar Şurasının və Daxili Qoşunların Veteranlar Şurasının üzvləri hərbi hissələrimizdə olub, şəxsi heyətlə görüşlər keçiriblər. Görüşlər zamanı cəsur azərbaycanlı döyüşçülərin Böyük Vətən müharibəsində göstərdikləri qəhrəmanlıq nümunələri barədə geniş məlumat verilib.***

***Aprel ayının 15-də 67987, 22-də 16073 saylı hərbi hissədə, 23-də isə Daxili Qoşunların Ali Hərbi Məktəbində hərbi qulluqçularımız və kursantlar qarşısında çıxış edən DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov, şura üzvü Ramiz Axundov, eləcə də Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, müavini Telman Aslanov və şura üzvləri hərbi xidmətin üstünlüklərindən söz açaraq, Vətənin müdafiəsi naminə əllərindən gələni əsirgəməməyin, dövlət və dövlətçiliyimiz naminə bütün səyləri birləşdirməyin vacibliyini önə çəkiblər.***

## FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏNİN 70 İLLİYİ ƏRƏFƏSİNDƏ

# VETERANLARIMIZ GƏNC ƏSGƏRLƏRLƏ GÖRÜŞÜB

Növbəti görüş aprelin 25-də qoşunların 25031 saylı hərbi hissəsində gənc əsgərlərlə Suraxanı rayon Böyük Vətən müharibəsi veteranları arasında keçirilib. Hərbi xidmətə yeni qəbul olunmuş əsgərlərlə "Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin 70 illiyi" mövzusunda keçirilmiş görüşdə gənc əsgərləri salamlayan veteranlar Sabunçu rayon Veteranlar Şurasının sədri Əliş Muxtaroğlu, müharibə iştirakçıları Sofiya Cəfərova, Ramazan Novruzov, Səfər Məmmədov belə tədbirlərin təşkilinə görə Daxili Qoşunların Komandanlığına minnətdarlıqlarını bildirərək, şəxsi heyətlə vətənpərvərlik mövzularında söhbətlərin aparılmasını çox müsbət hal kimi qiymətləndiriblər.





Görüşdə gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasının qarşıda duran əsas vəzifələrdən olduğu vurğulanaraq qeyd olunub ki, vətənpərvərlik bizə ulularımızdan qalan mirasdır: "Bu mirasa sahib çıxmaq, onu qoruyub gələcək nəsillərə çatdırmaq isə hər birimizin borcudur. Vətənə məhəbbət və sədaqətlə xidmət, lazım gələrsə, onun yolunda canını qurban verməyə hazır olmaq ölkəmizdə geniş təbliğ olunan ideyalardan biridir.

Azərbaycan xalqı mərd, igid xalqdır və hər zaman öz torpaqları uğrunda mübarizə aparmışdır. Böyük Vətən Müharibəsi illərində də xalqımız tam səfərbər olmuş, Ana Vətəni müdafiə etmişlər".

Müharibənin törətdiyi ağır faciələrdən danışan qocaman veteranlarımız azərbaycanlıların xeyli itki verməsinə baxmayaraq, böyük rəşadətlə düşmənə qarşı döyüşdüklərini diqqətə çatdırıb.

Qeyd olunub ki, müharibənin qələbə ilə başa çatmasında öz şücaəti, qəhrəmanlığı ilə xüsusilə fərqlənən və əsasən azərbaycanlılardan ibarət 416-cı diviziyanın rolu danılmazdır: "1942-ci ilin dekabrından qələbə gününə kimi olduqca şərəfli yol keçmiş diviziya ən cəsur 10 diviziya arasında yer tutmuşdu. Döyüş yolunu Şimali Qafqazdan başlayan diviziya Taqanroq şəhərinin azad olunması uğrunda misilsiz rəşadət nümayiş etdirmişdir. Bu döyüşdən sonra diviziyanı "Taqanroq diviziyası" da adlandırırdılar. Almaniya ərazisinə daxil olan ilk diviziya kimi adı tarixə yazılan "416" Meritopol, Odessa və digər şəhərlərin azad olunmasında mühüm rol oynamışdır".

Böyük fəxarət hissi ilə bildirilib ki, "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülən 130 nəfərdən 43-ü məhz azərbaycanlı idi. Onlar arasında 2 dəfə bu ada layiq görülmüş Həzi Aslanovun müharibədə göstərdiyi şücaət, qəhrəmanlıq isə dillər əzbəridir.

Müharibədə qələbə qazanmağın ən mühüm şərtlərindən biri kimi əsgərlərin döyüş ruhunun, mənəvi-psixoloji durumunun yüksəldilməsi amili də səsləndirilib. Bu baxımdan şəxsi heyətin Vətənə sevgi ruhunda tərbiyəsində mədəniyyət, elm xadimlərimizin, xüsusilə də Azərbaycan radiosunun misilsiz xidmətləri qeyd olunub.

Görüşün yekununda xüsusi olaraq vurğulanıb ki, Böyük Vətən müharibəsi veteranlarını həmişə ehtiramla yad edən Ümummilli Liderimiz Heydər Əliyev onlara böyük önəm verirdi. Ulu Öndərimiz həmişə veteranlarla görüşlər keçirir, onların qayğıları ilə maraqlanırdı.

Bu ənənə ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən bu gün də həyata keçirilməkdədir.

Hərbi hissə komandiri polkovnik Salamat Cəfərov isə öz növbəsində bütün şəxsi heyət adından veteranlara dərin minnətdarlığını bildirib və əminliklə vurğulayıb ki, Vətənin müdafiəsinə hər an hazır olan şəxsi heyət dövlət və dövlətçiliyimizə bundan sonra da sadiq olacaq.

Görüşün sonunda qonaqlara hədiyyələr təqdim olundu və xatirə şəkli çəkildi.

**leytenant X.Tağıyeva**

# MİNNƏTDARLIQ

**Hörmətli redaksiya!**

Anam Xanımbəs Ağayeva səhhəti ilə əlaqədar olaraq mart ayının 25-dən aprel ayının 10-dək Daxili Qoşunların Hərbi Qospitalının Terapiya, Anesteziologiya və reanimasiya şöbələrində müalicəyə qəbul olunub. Müalicə aldığı müddət ərzində qospitalın tibb personalı anama xüsusi diqqət və qayğı göstərib, onun sağlamlığına qovuşması üçün əllərindən gələni əsirgəməyiblər.

Buna görə də 12576 saylı hərbi hissə komandirinin müalicəvi işlər üzrə müavini-tibb xidmətinin rəisi polkovnik-leytenant Şəmsəddin Heydərov başda olmaqla, anamın müalicə olunmasında zəhməti olan bütün şəxsi heyətə, o cümlədən Anesteziologiya və reanimasiya şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Novruz Hüseynova və şöbənin tibb bacılarına, Terapiya şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Əlican Hacıyevə, baş ordinator tibb xidməti mayoru Ramil İsmayılova və şöbənin tibb bacılarına dərin minnətdarlığımı bildirir, bütün kollektivə bundan sonrakı xidməti fəaliyyətlərində uğurlar arzulayıram.

**Qərargahın Əməliyyat və döyüş hazırlığı İdarəsinin Qoşun xidməti bölməsində zabit kapitan Vüqar Abbasov**







# MÜHƏNDİS-İSTEHKAMÇILARIMIZ DAHA BİR SINAĞI UĞURLA BAŞA VURDU

***Hərbi qulluqçularımıza beynəlxalq standartlara uyğun istehkamçı sertifikatları verilib***

***Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) Daxili Qoşunların şəxsi heyətinin Humanitar Əməliyyatlar üzrə inkişaf etdirilməsi məqsədilə keçirdiyi təlimlər yekunlaşıb.***

Bu barədə məlumat verən Qərargahın Mühəndis xidmətində zabit mayor Baba Əliyev tədris proqramında ümumilikdə 4 qrupun iştirak etdiyini bildirdi. Onun sözlərinə görə, 1-ci qrup ötən ilin dekabr ayının 1-dən 27-nə, 2-ci qrup yanvarın 12-dən fevralın 6-na, 3-cü qrup fevralın 9-dan martın 7-nə, 4-cü qrup isə martın 30-dan aprelin 25-nə kimi təlim keçib.

Son təlim qrupunda Daxili Qoşunların zabit, gizir, çavuş və əsgərlərindən, həmçinin Çevik Polis Alayının 3 əməkdaşından ibarət olan 25 nəfərlik heyətin iştirak etdiyini deyən mayor B.Əliyev kursun təşkil olunmasında əsas məqsədin şəxsi heyətin nəzəri biliklərinin artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi və bu sahə üzrə əsl mütəxəssislərin (istehkamçıların) yetişdirilməsi olduğunu diqqətə çatdırdı. Əlavə etdi ki, keçirilən təlimlərdə minaların tapılması və məhv edilməsi, əraziyə dair təhlükəsizlik və bununla bağlı digər mövzular tədris olunub.





Söhbət zamanı aydın oldu ki, Göygöl regional təlim bazasında təşkil olunan təlimlər 4 həftəyə bölünüb. 3 həftə davam edən nəzəri məşğələlərdən sonra minaların praktiki olaraq zərərsizləşdirilməsi keçirilib. Bu proses ANAMA-nın Füzuli rayonundakı Horadiz qəsəbəsində yerləşən bazasında baş tutub. Qeyd edək ki, bu kurslara ixtisasın mahiyyəti nəzərə alınaraq soyuqqanlı, təmkinli, maksimum dərəcədə diqqətli hərbi qulluqçular cəlb olunublar. Onlardan hər an qarşıya çıxa biləcək təhlükəyə hazır olmaq və rastlaşdıqları partlayıcını düzgün qərar verərək zərərsizləşdirmək tələb olunur.

Praktiki məşğələlər yekunlaşdıqdan sonra kurs iştirakçılarından məqbullar, imtahanlar qəbul olunub və onların hər birinə beynəlxalq standartlara uyğun istehkamçı sertifikatları verilib.

Ümumiyyətlə, bu cür təlim kurslarının keçirilməsinin hərbi qulluqçuların peşəkarlığının artırılmasında mühüm əhəmiyyəti var.

Təlimlərdə şəxsi heyətin göstərdiyi cəsarət onu deməyə əsas verir ki, bu gün böyük əzmkarlıqla peşə vərdişlərini təkmilləşdirən istehkamçılarımız hər an qarşıya çıxa biləcək çətinlikləri dəf etməyə qadirdir.

**gizir N.Rzayeva**